**AZƏRBAYCAN RESPUBLİKASININ**
**KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI AGENTLİYİ**

**AZ1069, Bakı, Azərbaycan,**
**Mustafa Kamal Atatürk pr., 134**

**Tel.: (+994 12) 404 04 01**
**Faks: (+994 12) 404 04 03**

**E-poçt: info@smb.gov.az**
**www.smb.gov.az**

13 fevral 2026-cı il № 3-21-5/2-683/2026

**Azərbaycan Respublikasının**
**Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

05.12.2025-ci il tarixli
10-1/2-679/2025 nömrəliyə

Auditorlar Palatasının 30 illik yubileyi ilə bağlı təbrik məktubu

Hörmətli Vahid müəllim!

Sizi və Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivini palatanın yaradılmasının 30 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) kollektivi adından təbrik edirik.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində ölkənin maliyyə sisteminin mühüm sahəsi olan audit xidmətinin həcmi və əhatə dairəsi genişlənməkdədir. Bu il fəaliyyətə başlamasının 30 illiyini qeyd edən Auditorlar Palatasının bu sahədə fəaliyyəti xüsusilə əhəmiyyətlidir. Ötən müddətdə palatanın səmərəli fəaliyyəti nəticəsində milli audit sistemi inkişaf edib, auditor xidmətlərinin tətbiq sahələri genişlənib, kölgə iqtisadiyyatının aradan qaldırılmasında və sahibkarlığın inkişafında auditin rolu artıb. Auditorlar Palatasının milli audit institutunun beynəlxalq mühitə inteqrasiyası, Azərbaycanda beynəlxalq audit standartlarının tətbiqi və peşəkar auditorların hazırlanması sahəsindəki xidmətləri də təqdirəlayiqdir.

Sahibkarlıq sahəsində şəffaflığın və maliyyə hesabatlılığının artırılması, bu sahədə milli

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi
İmzalayan şəxs: Orxan Məmmədov / (İdarə Heyətinin sədri)
İmzalanma tarixi: 13.02.2026 17:44
Tarix/nömrə: №3-21-5/2-683/2026
Qoşma sənəd:
https://qr.smb.gov.az/?&id=3000153034007&entity=doc_outdoc&hash=266d407e16bc2f660c21bbe632c798fb
Qeyd: <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzası ilə bərabər tutulur.

və beynəlxalq standartların tətbiqi vacibdir. KOBİA olaraq sahibkarların maliyyə intizamının gücləndirilməsi və dayanıqlı inkişafının təmin olunmasında audit institutunun əhəmiyyətini xüsusi vurğulayırıq. Bu baxımdan Auditorlar Palatası ilə əməkdaşlığın genişləndirilməsi, birgə maarifləndirmə təşəbbüslərinin və layihələrin reallaşdırılması KOB subyektlərinin maliyyə savadlılığının artırılmasına, könüllü audit mədəniyyətinin təşviqinə, nəticədə sahibkarlıq mühitinin daha da sağlamlaşdırılmasına xidmət edəcəkdir.

Əminik ki, Auditorlar Palatası bundan sonra da dövlətimizin iqtisadi maraqlarının qorunmasına, maliyyə nəzarətinin möhkəmləndirilməsinə və sahibkarlıq mühitinin inkişafına öz töhfəsini verəcəkdir.

Auditorlar Palatasının kollektivini əlamətdar gün münasibətilə bir daha təbrik edir, peşəkar fəaliyyətlərində yeni uğurlar və davamlı inkişaf arzulayırıq.

Hörmətlə,
**İdarə Heyətinin sədri** **Orxan Məmmədov**

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi
İmzalayan şəxs: Orxan Məmmədov / (İdarə Heyətinin sədri)
İmzalanma tarixi: 13.02.2026 17:44
Tarix/nömrə: №3-21-5/2-683/2026
Qoşma sənəd:
https://qr.smb.gov.az/?&id=3000153034007&entity=doc_outdoc&hash=266d407e16bc2f660c21bbe632c798fb
Qeyd: <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzası ilə bərabər tutulur.